

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 yanvar 2025-ci il №3 (2912) https://mod.gov.az Qiyməti 30 qəpik

## Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə yanvarın 13-də Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfər edib.*

Əbu-Dabinin Zayed Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan qarşılayıb.

* * *

Yanvarın 13-də Əbu-Dabidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan birgə nahar ediblər.

* * *



Yanvarın 13-də Əbu-Dabidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü olub.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti 2024-cü ildə Azərbaycana rəsmi və COP29 ilə bağlı səfərlərini, bu səfərlər çərçivəsində dövlətimizin başçısı ilə keçirdiyi görüşləri və aparılmış müzakirələri məmnunluqla xatırlayıb.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin COP29-da iştirakını bir daha yüksək qiymətləndirən dövlətimizin başçısı qeyd edib ki, bu mühüm beynəlxalq tədbirin uğurla başa çatdırılmasında Azərbaycanın Birləşmiş Ərəb Əmirlikləri ilə əməkdaşlığı və bu ölkənin konsepsiyası da öz rolunu oynayıb.

Dövlət başçıları münasibətlərimizin strateji tərəfdaşlıq xarakteri daşıdığını deyərək, Azərbaycan ilə BƏƏ arasında dostluq və qardaşlıq əlaqələrinin mövcud olduğunu vurğulayıblar. Hazırda ölkələrimizdə sabitliyin və əmin-amanlığın hökm sürdüyü qeyd olunub.

Siyasi münasibətlərimizin mükəmməl səviyyədə olduğunu deyən Prezident İlham Əliyev iqtisadi-ticari əlaqələrin genişləndiyini qeyd edib, Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanın bərpaolunan enerji sahəsinə qoyduğu investisiyaların da dostluğumuzun və tərəfdaşlığımızın nümunəsi olduğunu vurğulayıb. Həmçinin ölkələrimizin ənənəvi enerji sahəsində yaxından əməkdaşlıq etdiyi qeyd olunub.

Söhbət zamanı ikitərəfli, regional, qlobal, həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

(Ardı 2-ci səhifədə)

## Aleksandar Vuçiç: Azərbaycanla və Prezident İlham Əliyevlə dostluğumuzla fəxr edirəm

Mən Azərbaycanla və Prezident İlham Əliyevlə dostluğumuzla fəxr edirəm.

AZƏRTAC xəbər verir ki, bu sözləri Serbiya Prezidenti Aleksandar Vuçiç yerli televiziya kanalındakı çıxışı zamanı deyib.

"Bəzi ölkələr bir müddət qaz almayacaq, lakin Azərbaycan Prezidenti, böyük dostumuz İlham Əliyev qərar verdi, Serbiyaya hər zaman qaz nəql olunacaq. Bu, ölkəmiz və xalqımız üçün böyük və mühüm qərardır. Azərbaycanla və Prezident İlham Əliyevlə dostluğumuzla fəxr edirəm. Mən onu nə vaxt desə Belqradda gözləyirəm. Çünki biz qarışıq komitələrə malik olmalıyıq və əməkdaşlığımızı daha çox müzakirə etməliyik. Bizim sosial həyatın bütün sahələrində strateji əlaqələrimiz var və bu münasibətlər getdikcə daha da inkişaf edir. Bu, hər zaman belə dostlara arxalana biləcəyimizin yalnız bir göstəricisidir. Belə dostluqlar qurmalısınız", - deyə Aleksandar Vuçiç vurğulayıb.

Xatırladaq ki, Serbiya Prezidenti ötən gün sosial media hesabındakı paylaşımda Azərbaycandan Serbiyaya təbii qaz nəqlinin dayandırılmayacağını deyib, Azərbaycana və Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

## Müdafiə Nazirliyi ilə Ombudsman Aparatının birgə tədbirlər planı imzalanıb

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) Aparatının "Ombudsman təsisatı, hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı aparılan işlər" mövzusunda, həmçinin insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi ilə əlaqədar 2025-ci il üçün birgə tədbirlər planı imzalanıb.

Plana əsasən, cari il ərzində keçirilməsi nəzərdə tutulan tədbirlərin yeri, vaxtı və məsul şəxslər müəyyənləşdirilib.

Müdafiə Nazirliyinin tabeliyində olan qoşun (qüvvə) növü, birlik, birləşmə və hərbi hissələrdə, o cümlədən xüsusi təyinatlı təhsil müəssisələrində keçiriləcək tədbirlərdə hərbi qulluqçuların hüquqlarının müdafiəsi, insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi ilə əlaqədar bir sıra görüşlər keçiriləcək, eləcə də müxtəlif mövzularda məruzələr dinləniləcək və ətraflı fikir mübadiləsi aparılacaq.

## Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında illik fəaliyyət planı imzalanıb

Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında Azərbaycan Ordusunda dini radikalizmə qarşı mübarizəyə dair 2025-ci il üçün birgə fəaliyyət planı imzalanıb.

Sənədə əsasən, Müdafiə Nazirliyinin tabeliyində olan qoşun (qüvvə) növü, birlik, birləşmə və hərbi hissələrdə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində keçiriləcək tədbirlərin yeri, icra vaxtı və məsul şəxslər müəyyən edilib.

Bu il ərzində hərbi qulluqçularla təşkil ediləcək görüşlərdə azərbaycançılıq ideyasının, milli-mənəvi, mədəni dəyərlərin qorunub saxlanılmasının inkişaf etdirilməsi, radikal dini cərəyanlar və ekstremizmlə mübarizə, mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında əməkdaşlıq və digər mövzularda tədbirlərin keçirilməsi planlaşdırılıb.

## Müdafiə Nazirliyi və Respublika Hərbi Prokurorluğu arasında birgə tədbirlər planı imzalanıb

2025-ci ildə Azərbaycan Ordusunda hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi, cinayət hadisələrinin qarşısının alınması məqsədilə Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu arasında birgə tədbirlər planı imzalanıb.

Planda cari il ərzində nəzərdə tutulan birgə tədbirlər, icra vaxtı, keçirilmə yeri və məsul şəxslər müəyyənləşdirilib.

2025-ci il ərzində Müdafiə Nazirliyinin tabeliyində olan qoşun (qüvvə) növü, birlik, birləşmə və hərbi hissələrdə, həmçinin xüsusi təyinatlı təhsil müəssisələrində hərbi qulluqçularla keçiriləcək görüşlərdə şəxsi heyətin hüquqi maarifləndirilməsi, nizam-intizamın və hüquq qaydalarının möhkəmləndirilməsi, mövcud problemlərin aradan qaldırılması istiqamətində müəyyən olunmuş tədbirlərin və digər fəaliyyətlərin icra olunması öz əksini tapıb.

# Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri






(Əvvəli 1-ci səhifədə)

Yanvarın 14-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışı və Zayed Dayanıqlılıq Mükafatının təqdimat mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Tədbirdə çıxış edən Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir ölkəsinin dayanıqlılıq sahəsində həyata keçirdiyi siyasət və layihələr barədə məlumat verib, Əbu-Dabi Dayanıqlılıq Həftəsinin mühüm beynəlxalq platforma kimi rolunun artdığını qeyd edib.

Sonra Zayed Dayanıqlılıq Mükafatının təqdimat mərasimi olub.

Daha sonra Zayed Dayanıqlılıq Mükafatının qalibləri ilə xatirə şəkli çəkdirilib.

* * *

Qeyd edək ki, 2008-ci ildə təsis olunan Əbu-Dabi Dayanıqlılıq Həftəsi ötən illər ərzində dayanıqlı qlobal inkişaf baxımından önəmli müzakirələrin aparıldığı beynəlxalq platformaya çevrilib. Qlobal əməkdaşlıq və liderlik, iqtisadi inkişaf və texnologiya, eləcə də innovasiya prinsiplərini əsas istiqamətlər kimi müəyyənləşdirən Dayanıqlılıq Həftəsi dövlət və hökumət başçılarını, siyasətçiləri, sənaye liderlərini, iş adamlarını və gəncləri bir araya gətirir. Budəfəki Dayanıqlılıq Həftəsində 13 dövlət və hökumət başçısı, eləcə də 140-dan çox nazir və digər rəsmi şəxslər iştirak edir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri yanvarın 14-də başa çatıb.

Əbu-Dabinin Zayed Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi rəsmi şəxslər yola salıblar.

**AZƏRTAC-ın materialları əsasında**

## "Partlayıcı döyüş sursatlarının zərərsizləşdirilməsi kursu"nun buraxılış mərasimi keçirildi





Hərbi Dəniz Qüvvələrinin (HDQ) "N" hərbi hissəsində "Partlayıcı döyüş sursatlarının zərərsizləşdirilməsi kursu"nun buraxılış mərasimi keçirildi.

Əvvəlcə hərbi hissənin ərazisində şəhidlərimizin xatirəsinə ucaldılan abidə önünə gül dəstələri düzüldü, hörmət və ehtiram nümayiş etdirildi.

Daha sonra Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, eləcə də ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, hərbi orkestrin müşayiəti ilə Dövlət Himni səsləndirildi.

HDQ-nin komandanı 1-ci dərəcəli kapitan Şahin Məmmədov çıxış edərək kurs iştirakçılarını buraxılış münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik etdi, onlara gələcək xidməti fəaliyyətlərində uğurlar arzuladı. O, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi ordu quruculuğu siyasətinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində suverenliyimiz və ərazi bütövlüyümüz uğrunda gedən döyüş əməliyyatları zamanı digər qoşun növləri kimi, HDQ-nin şəxsi heyətinin də qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlməsindən danışdı. 1-ci dərəcəli kapitan Ş.Məmmədov hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin və praktiki vərdişlərinin daha da təkmilləşdirilməsi məqsədilə keçirilən bu cür kursların əhəmiyyətini xüsusi vurğuladı, kursun yüksək səviyyədə təşkilinə və keçirilməsinə görə Azərbaycan və qardaş Türkiyədən olan təlimatçılara təşəkkürünü bildirdi.



Məzunlar adından çıxış edən miçman Şahin Rəfili qeyd etdi ki, kurs təlimatçılarının sayəsində qısa müddət ərzində nəzəri və praktiki biliklər, yüksək mənəvi və iradi keyfiyyətlər qazanıblar. "Bu gün böyük qürur hissi ilə bildiririk ki, biz ata-babalarımızın qəhrəmanlıq ənənələrini davam etdirəcək, Vətənimizin ərazi bütövlüyünü, təhlükəsizliyini göz bəbəyi kimi qoruyacaq, qarşımıza qoyulan döyüş tapşırıqlarını yerinə yetirməyə hər an hazır və qadir olacağıq. Kurs müddətində qazandığımız nəzəri bilikləri və praktiki vərdişləri gələcək xidməti fəaliyyətlərimizdə tətbiq edəcək, şanlı Bayrağımızı həmişə uca tutacaq, göstərilən etimadı Vətənə, xalqa, dövlətə sədaqətimizlə doğruldacağıq".

Məzunlara sertifikatlar və döş nişanları təqdim olunduqdan sonra buraxılış mərasimi başa çatdı.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

## "Xəzri-2025" təliminin "İlkin Planlaşdırma Konfransı" çərçivəsində video telekonfrans formatında görüş keçirilib



Yanvarın 14-də Hərbi Dəniz Qüvvələrində "Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Qazaxıstan Respublikası Müdafiə Nazirliyi arasında 2025-ci il üçün ikitərəfli hərbi əməkdaşlıq planı"na əsasən keçiriləcək "Xəzri-2025" birgə dəniz təliminin "İlkin Planlaşdırma Konfransı" çərçivəsində video telekonfrans formatında görüş keçirilib.

Qazaxıstan nümayəndə heyətinin də iştirak etdiyi konfransda təlimə hazırlıq və icra olunacaq tapşırıqlarla bağlı bir sıra məsələlər müzakirə olunub.

Görüşdə hər iki ölkənin hərbi qulluqçularının peşəkarlıq səviyyələrinin daha da yüksəldilməsi məqsədilə birgə təlimlərin keçirilməsinin vacibliyi xüsusi qeyd olunub.

**"Azərbaycan Ordusu"**

*"Konstitusiya və Suverenlik İli"*

# Xalqımızın arzuladığı günün ili

***İl ilə qovuşur. Hər arxada qoyduğumuz il mühüm hadisələrlə yadda qalır. Bu hadisələr içərisində dövlətimizi, dövlətçiliyimizi mövcud edən, onu qoruyub saxlayan hadisələr tarixə çevrilir, tarixləşir. Yetmiş illik sovet imperiyasının əsarətindən bir çox mübarizələrdən sonra qurtulan xalq üçün müstəqillik böyük nemət idi. O zaman Azərbaycan xalqı müstəqillik qazandı, yenidən dövlət qurdu, qurduğu dövlətin ərazi bütövlüyünü qorumaq kimi mühüm bir missiya da vardı. Bu missiyanı uğurla həyata keçirdi də.***




Tarixdən bizə yaxşı məlumdur ki, Azərbaycanın ərazi bütövlüyünə qarşı zaman-zaman yadellilərin hücumları olub. Bu hücumların da arxasında düşmənin torpaqlarımızı zəbt etmək niyyəti dayanırdı. Lakin öz Vətənini, torpağını, qurduğu dövlətin ərazi bütövlüyünü qorumaq üçün xalqımız vətənpərvərlik nümunəsini bütün dönəmlərdə nümayiş etdirib. Özündən qat-qat güclü və qüdrətli dövlətlə belə mübarizədən geri çəkilməyib. Söz yox ki, bu cür mübarizələrdən itkisiz ayrılmaq mümkün deyildi. 1991-ci ildə Azərbaycan xalqı əbədi müstəqilliyinə qədəm qoyanda Azərbaycan Sovet Sosialist Respublikasının sərhədləri daxilində dövlət kimi özünü bərqərar etmişdi. Həmin dövrdə Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiası daha da geniş vüsət almaqda idi. Erməni silahlı birləşmələri Qarabağda və Ermənistanla sərhəd rayonlarda dinc insanlara qarşı silahlı hücumlar təşkil edir, ev-eşiklərini yandırır, insanları əsir götürür və güllələyirdilər. Təbii ki, düşmən bunu təkbaşına etmirdi, ona arxa duran qüvvələrin gizlin dəstəyi ilə həyata keçirirdi. Düşmən qismən olsa da, öz istəyinə nail oldu. Azərbaycanın ərazisinin 20 faizini işğal etdi, bir milyondan artıq azərbaycanlı doğma yurd-yuvasından didərgin salındı. Bu işğal 30 ilə yaxın davam etdi. Rəşadətli Azərbaycan Ordusu düşməni məğlub edərək işğal olunmuş torpaqlarını qaytardı, ölkənin ərazi bütövlüyünü bərpa etdi.

Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci il Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edilib. Sərəncamda deyilir: "Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideyalarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir".

Azərbaycan xalqı əbədi müstəqilliyə qədəm qoyanda 1918-ci ildə qurduğu Azərbaycan Demokratik Cümhuriyyətinin ideya və prinsiplərini yaşatmaq arzusunda olub. Lakin uzun illər Sovet imperiyasının tərkibində yaşamağa məhkum edilmiş Azərbaycan xalqı böyük məhrumiyyətlərlə üzüzə qaldı. Dövlət idarəçiliyinə təsadüfi, naşı adamların gəlməsi xalqın müstəqilliyinə və suverenliyinə olan bütün inamını puç etməyə başlamışdı. Ölkə daxilində yaranmış xaos, hərc-mərclik az qala vətəndaş müharibəsi həddinə çatmışdı. Qarabağda və Ermənistanla şərti sərhəddə vəziyyət daha ciddi xarakter almışdı. Müharibənin ilk dövründə yeni yaranmaqda olan ordumuzun uğurlu hərbi əməliyyatları artıq uğursuzluğa düçar olunmuşdu. Ağdərə istiqamətində düşmən fəallığını daha da artırmışdı. Vətənpərvər oğullarımızın igidliyi sayəsində azad edilmiş ərazilər yenidən hissə-hissə işğala məruz qalırdı. Bu məğlubiyyətin kökündə həm də ordumuzun vahid komandanlıq tərəfindən idarə olunmaması dayanırdı. Pərakəndə döyüşən ordu birləşmələri bir çox hallarda qarşıya qoyulan döyüş tapşırıqlarını icra etməkdə çətinlik çəkirdi. İşğalın miqyası artdıqca ordunun şəxsi heyəti arasında ruh düşkünlüyü, rəhbərliyə olan inamsızlığı da artırdı. Ölkə daxilində yaranmış gərginlik cəbhədə döyüşən əsgərlərin gələcəyə olan ümidlərini də tamam tükətmişdi. Gəncədə baş qaldırmış qiyam artıq vətəndaş müharibəsinin başlanğıcından xəbər verirdi. Xalqı, dövləti düşdüyü bu ağır vəziyyətdən xilas etmək üçün güclü liderə ehtiyac vardı. O zaman xalqın ümid yeri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olan Heydər Əliyevə idi. 1993-cü ilin 15 iyununda Heydər Əliyev Milli Məclisin sədri vəzifəsinə seçildi. Ulu Öndərin siyasi hakimiyyətə qayıdışı xalqda gələcəyə olan inamını artırdı. Tez-tez cəbhəyə səfər edən Heydər Əliyev döyüşçülərlə görüşüb onları Vətənin müdafiəsinə daha da ruhlandırırdı. Cəbhədə yaranmış uğursuzluqların səbəblərini araşdıran dövlətimizin başçısı ordu quruculuğuna yenidən başlamaq lazım olduğunu düşünürdü. 12 may 1994-cü ildə düşmənlə cəbhədə uzun sürən atəşkəsə razılıq əldə etdi. Bundan sonra ordu quruculuğunun yeni mərhələsinə qədəm qoydu və bununla da Ulu Öndər Heydər Əliyev vahid komandanlıq altında birləşmiş indiki güclü ordumuzun əsasını qoymuş oldu.

Azərbaycan Respublikası Prezidentinin ötən ilin dekabrın 27-də imzaladığı Sərəncamda həmin illərin mühüm hadisələri geniş ifadə olunub.

Sərəncamda 1991-1993-cü illərdə yaranmış siyasi gərginliklərdən də bəhs olunur: "1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyasının hazırlanması nəzərdə tutulsa da, 1991-1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçilik mexanizmləri formalaşdırılmış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır.

Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

Konstitusiyanın preambulasında Azərbaycan dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazidə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəlmişdir".

1995-ci il noyabrın 12-də xalqın səs çoxluğu ilə qəbul edilən, milli-mənəvi dəyərləri özündə ehtiva edən, demokratik dövlətçilik ənənələrinə söykənən və daim inkişaf yolunu tutan parlaq Azərbaycan naminə ilk Konstitusiyanın müəllifi və memarı Ulu Öndər Heydər Əliyev olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünə qarşı erməni təcavüzünün davam etdiyi illər ərzində ölkəmizə rəhbərlik etmiş Ümummilli Lider Heydər Əliyev və onun siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ermənistan rəhbərliyindən işğal etdikləri ərazilərimizdən silahlı birləşmələrini sülh danışıqları yolu ilə çıxarılmasını tələb etsə də, qarşı tərəf buna məhəl verməmiş, əksinə, işğalı davam etdirmişdi. Lakin dövlətimizin başçısı Ermənistan rəhbərliyi işğaldan əl çəkməzsə Azərbaycan tərəfi beynəlxalq hüquqdan istifadə edərək hərb yolu ilə öz ərazi bütövlüyünü təmin edəcəyini bəyan etmişdi. 2016-cı ilin aprelin əvvəlində atəşkəsdən sonra cəbhədə ilk dəfə idi ki, ən ağır döyüşlər olmuşdu. Dörd gün davam edən döyüşlərdə Azərbaycan Ordusu düşməni böyük məğlubiyyətə düçar edərək hektarlarla ərazini azad etdi. 2018-ci ilin mayında Naxçıvanda "Günnüt" əməliyyatı da bir daha ordumuzun peşəkar, güclü olduğunun nümunəsi idi.

Məlum Aprel döyüşlərindən sonra ordumuzda şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi istiqamətində daha ciddi addımlar atıldı. Dövlət başçısının Müdafiə Nazirliyinin rəhbərliyi qarşısında qoyduğu başlıca tələbi də ordunun döyüş qabiliyyətini artırmaq və hər an istənilən döyüş tapşırığını yerinə yetirməyə hazır olmasını təmin etməkdən ibarət idi.

2020-ci il sentyabrın 27-də Ermənistanın genişmiqyaslı təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycanın Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 19 sentyabr 2024-cü il tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

İkinci Qarabağ müharibəsi Azərbaycanın hərb tarixində miqyasına görə ən uğurlu döyüş əməliyyatları ilə yadda qalıb. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuz əks-hücumla 44 gün ərzində düşmən ordusunu darmadağın edərək onu kapitulyasiya aktını imzalamağa məcbur etdi. 2023-cü ilin 19-20 sentyabrında ordumuzun keçirdiyi antiterror əməliyyatı nəticəsində 30 ilə yaxın düşmən işğalı altında qalmış torpaqlarımız azad edildi, ölkəmizin ərazi bütövlüyü tam bərpa olundu. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Şuşa, Füzuli, Ağdam, Xankəndi, Ağdərə, Xocalı, Əsgəran və işğaldan azad edilmiş ərazilərimizdə Azərbaycan bayrağını qaldırdı, bununla da ölkəmizin suverenliyi və ərazi bütövlüyünün tam bərpa olunduğunu bəyan etdi.

2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" kimi qeyd olunması hər bir azərbaycanlının qəlbinin səsidir. Çünki xalqımız on illər boyu doğma Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsini, ərazi bütövlüyünün tam bərpa olunması gününü səbirsizliklə gözləyirdi. Biz bu gün arzu etdiyimiz günün sevincini yaşayırıq. "Konstitusiya və Suverenlik İli"miz mübarək!

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

## Tibb xidməti

# “Hər iki peşə şərəfli və qürurvericidir”

*Ermәni tәcavüzünün baş qaldırdığı gündәn bu günә qәdәr neçә-neçә döyüşçümüz vә mülki vәtәndaşımız yaralanıb, ölüm ayağından qayıdıb. Onlara Tanrıdan sonra yenidәn ömür bәxş edәn hәkimlәr olub.*

İşğaldan azad edilmiş ərazidə yerləşən hərbi hospitaldayıq. Hospitalın binası yaradılan şəraitinə, tibbi təminatına görə heç də mərkəzi hospitaldan fərqlənmir. Havanın kəskin soyumasına baxmayaraq dəhlizdə və otaqlarda eyni dərəcədə istiliyin olması müalicə olunanların səhhətinə, həmçinin tibb heyətinin yüksək səviyyədə xidmət aparmasına şərait yaradır.

Tibb xidməti polkovnik-leytenantı Mirağa Tarverdiyevlə söhbətə keçməzdən əvvəl “Sizə həkim, yoxsa cənab polkovnik-leytenant deyə müraciət edək”, - sualıma o, təbəssümlə cavab verdi: - Fərqi yoxdu, hər ikisi xalqa xidmət edən şərəfli, qürurverici peşədi, sizə necə rahatdırsa, elə də deyin. Həkim-zabitin nə qədər təvazökar, səmimi biri olduğunu aldığım cavabdan hiss etdim.

Həkim Mirağa Tarverdiyev Qubadlı rayonunda anadan olub. Xalqımız erməni işğalına məruz qalanda hamı kimi onların da ailəsi doğma yurd-yuvasını tərk edib. Qubadlı işğal olunanda Mirağanın on yaşı vardı. Valideynləri Sumqayıta pənah gətiriblər. Onun məcburi köçkünlük illərinin çoxu Sumqayıtla bağlıdı. Məskunlaşdığı şəhərdə orta məktəbi əla qiymətlərlə oxuyub. Arzusu hərbi həkim olmaq olub. 2006-cı ildə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb fakültəsini "ümumi cərrah" ixtisası üzrə bitirdikdən sonra ilk xidmət yeri cəbhə bölgəsi olub. Taborun həkimi vəzifəsində xidmət etdiyi müddətdə şəxsi heyətin sağlamlığına ciddi önəm verib. Ordinantura təhsilini başa vurandan sonra cəbhə bölgəsində yerləşən hospitalda təyinatı üzrə xidmətini davam etdirib.

- Mirağa həkim, bildiyim qədər sizin ilk səmərəli fəaliyyətiniz Aprel döyüşləri zamanı olub. Bu barədə söyləyəcəkləriniz maraqlı olardı.

- Ümumiyyətlə, hərbi xidmətə başladığım ilk gündən həkim kimi məsuliyyətimi dərk et-



mişəm. Qarşıma məqsəd qoymuşam ki, Vətən müdafiəçilərimizin sağlamlığının keşiyində mətinliklə dayanım. 2016-cı ildə hərbi əməliyyatların getdiyi ərazidə səyyar hospitalın rəisi təyin olunmuşam. Daxil olan yaralıları digər həkim yoldaşlarımın köməyi ilə cərrahi əməliyyat edərək stasionar hospitala təhvil verirdik.

Mirağa həkim Aprel döyüşlərindən sonra da xidmətini məsuliyyətlə davam etdirib. Onun doğulduğu Qubadlı rayonu və digər erməni işğalında olan ərazilərimizin azad edilməsinə ümidi də artmışdı. Ən böyük arzusu idi uşaqlıq illərinin keçdiyi yerlərə qayıtmaq, on illərlə gerçəkləşməyən xatirələrini yaşamaq. Lakin Aprel döyüşləri cəmi dörd gün çəkdi. Bu qısa döyüşlərdən sonra hamı düşmənin "ağıllanacağına", yəni, işğalçılıq siyasətindən əl çəkib torpaqlarımızı danışıqlar yolu ilə geri qayıdacağına ümidli idi. Lakin tam əksi oldu.

2020-ci ilin yayında cəbhənin Tovuz istiqamətində düşmən yenidən "fəallaşdı". Yeni ərazilərimizi işğal etmək iddiasına düşsə də, ordumuzun mətin döyüşçüləri düşmənin arzusunu üləyində qoydu. Həmin ilin payızında ermənilər yenidən fəaliyyətə keçmək istədilər və hər an sayıq olan əsgərlərimiz düşmənin məkrli niyyətini həyata keçirməsinə imkan vermədilər.

Düşmənin genişmiqyaslı təxribatlarının qarşısını almaq üçün sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin əks-hücum əmri ilə ordumuz döyüşə başladı. Müharibənin ilk anından hərbi tibb heyətləri də yaralılara yardım göstərmək üçün cəbhəyə cəlb olundular. Tibb xidməti polkovnik-leytenantı Mirağa Tarverdiyev lazımi döyüş təcrübəsinə malik olduğu üçün səyyar mobil hospitala rəis təyin edildi. Müharibənin od-alovundan təxliyə edilən yaralı əsgərləri yenidən həyata qaytarmaq üçün həkim briqadaları fəaliyyətə keçdilər. Mirağa həkimin rəhbərlik etdiyi səyyar hospital döyüş meydanına yaxın məsafədə yerləşdirilmişdi. Ona görə ki, döyüşdən təxliyə edilən yaralılara vaxtında ilkin tibbi yardım göstərmək mümkün olsun. Cəmi 44 gün davam edən və ordumuzun qələbəsi ilə başa çatan müharibədə döyüş itkisinin ən az həddə olmasında həkimlərin də müstəsna xidmətləri var.

Artıq müharibə başa çatıb, Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımız işğaldan azad edilib. Mirağa həkim deyir ki, hospitala daha yaralı gəlmir, bu, bizi çox sevindirir. Müraciət edənlər isə mövsümi xəstəliklərlə bağlı olanlardı. Onları da qısa zamanda müayinə və müalicə edib xidmət yerlərinə yola salırıq.

Hospitalda yaradılan şərait, həkimlərin və tibb işçilərinin səhhəti ilə bağlı müraciət edən hərbi qulluqçulara göstərdiyi diqqət bir daha onu deməyə əsas verir ki, ordumuzda tibb xidməti yüksək səviyyədə təşkil olunur.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Hərbi xidmət haqqında söhbət

*Yeniyetmәnin düşüncәlәrindә dövlәt, dövlәtçilik mәfhumları orta mәktәbdә oxuyanda formalaşır. Müәllimlәrinin söhbәtlәri, oxuduğu kitablar, televiziyada baxdığı verilişlәr, filmlәr, ağsaqqalların öyüd-nәsihәtlәri - hamısı yeniyetmәnin düşüncәlәrini formalaşdırır. Dövlәtin nә olduğunu anlayanlar sәrhәd ifadәsinin mәzmununu da öyrәnir, sәrhәdin bu üzünün Vәtәn olduğunu da. Vәtәni tanıyır. Akademik Xudu Mәmmәdov valideynlәrә, müәllimlәrә tövsiyә edirdi ki, siz uşaqlara "Vәtәni sevin" demәyin, onlara Vәtәni tanıdın, özlәri sevәcәklәr, yeniyetmәlәr Vәtәni sevirlәr, sevdiklәri Vәtәnin necә qorunduğunu da bilirlәr, görürlәr. Özlәrinin dә nә vaxtsa onların sırasında olacaqlarını bilirlәr.*

Yüksək vətəndaşlıq duyğularıyla formalaşanlar həmin günün tezləşməsinin intizarını çəkirlər: "Mən də əsgər ola-



cam!" - deyirlər.

Bir vaxtlar bu intizarla yaşayanlar bu gün hərbi xidmətdədirlər - Vətənə xidmət edirlər. Onlarla hərbi xidmətdən danışırıq.

- Atam həmişə hərbi xidmətin çətinliklərindən də danışardı, qürurundan da. Deyərdi ki, çətinliklər ötərgidi, qürur həmişəlikdi. Zaman keçdikcə hərbi xidmət illərini daha teztez xatırlayırsan, Sıra Nizamnaməsini, ilk sıra yerişini, komandirlərinə ilk məruzələrini, rəislərinlə salamlaşmaları, ilk təlimləri və s. unutmaq mümkün deyil, döyüş növbətçiliyinə getdiyiniz saatları siz də unutmayacaqsınız... - Hərbi xidmətə gəldim. Qətiyyətlə əmin oldum ki, hərbi xidmət ömrün bir mərhələsidir və bu mərhələ gənc üçün böyük, həm də əvəzedilməz bir məktəbdir. Mən hərbi xidmətdən tərxis edildikdən sonra kəndimizə qayıdanda çağırışçılara hərbi xidmətdən böyük qürurla danışacam, - əsgər Murad Şirinli belə deyir. Əsgərin hərbi xidmətə - Vətənə sevgisini duymaq çətin deyildi.

Əsgər Abdulla Şirinov deyir:

- Əsgər yoldaşlarımdan birinin atası bizdən də cavan olanda Zəngilanın Canbar kəndindən qaçqın olub. Deyirmiş ki, əsgər yoldaşlarımdan beş nəfərinin kəndləri işğal olunmuşdu. Biz asudə vaxtlarda söhbətləşəndə deyirdik ki, kaş döyüş əmri verilə, bizi də döyüşlərə aparalar, kəndimizi işğaldan azad edənlərin sırasında biz də olaq. Atam əsgər olanda döyüş əmri verilmədi. Döyüş əmri veriləndə mən məktəbli idim. Ordumuz tarixi Zəfər qazandı. Mən və əsgər yoldaşlarım Zəfərdən sonrakı dövrün əsgərləriyik. Bu ada layiq xidmət edirik. Tarixi Zəfər qazanmış əsgərlərin mənəvi davamçıları kimi...

- Hərbi xidmət Vətənə borc ödəmə olsa da, əsgərin mənəvi keyfiyyətlərini də formalaşdırır, dünyagörüşünü də genişləndirir. Hərbi xidmətdə xarakterini bəyəndiyin əsgərlərlə münasibətlərin yaxşılaşır, dostlaşırsan, bu dostluq hər əsgər üçün zamandan qazanc olur, - əsgər Elvin Əhmədli hərbi xidmətin vətəndaş kimi yerinə yetirilməli olan mükəlləfiyyət olduğunu da qeyd edir, həyat üçün belə gərəkli mənəvi dünya yaratdığını da...

Əsgər Elvin Əhmədli hərbi xidmətdə yaşadılmalı bir mətləbdən söz açır:

- Bu və ya digər peşəni öyrədənə ustad deyirlər. Əsgər hərbi xidmətə başlayır, ona ilkin vərdişlər, atıcı silahların istismar xüsusiyyətləri, döyüş növbətçiliyi aparmaq, başqa texnikaların idarə edilməsi öyrədilir. Əsgər ona belə biliklər verənləri necə unuda bilər? Təlimlərdə məsləhətləri ilə onun bacarıq və qabiliyyətinin formalaşmasının qayğısına qalan təcrübəli əsgər yoldaşlarını unuda bilərmi? - onları da heç zaman unutmaz. Bu baxımdan əsgər hərbi xidmətdə bütün komandirlərini, xidmət yoldaşlarını düşüncələrinin adaşı bilir...

Əsgərlər nümunəvi xidmət edirlər, gözəl düşünürlər. Əminliklə düşünürük - Azərbaycan əsgəri hamımıza qürur yaşadır, sevinc yaşadır!..

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# ANAMA: 1043.2 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib




*Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatlarına dair statistik məlumatı açıqlayıb.*

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, yanvarın 3-dən 12-dək Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 192, tankəleyhinə 55 mina və 567 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Bu müddətdə 1043.2 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# İdrak savaşlarının təzahürləri və fəsadları

## Koqnitiv müharibələrdən qorunmanın ən səmərəli üsulu milli-mənəvi dəyərləri özündə ehtiva edən milli koqnitiv müdafiə düşüncə tərzinin formalaşdırılmasıdır

Ehtiyatda olan polkovnik-leytenant, hərbi jurnalist İsa İsmayılov və tərcüməçi, publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü Nadiyə Qafarova "İdrak savaşlarının (Koqnitiv müharibələr) təzahürləri və fəsadları" adlı məqalə hazırlayıb. AZƏRTAC məqaləni təqdim edir.

Hipnoz insan beyninə təsirin praktiki, görünən vasitə və metodu kimi çox qədim zamanlardan mövcuddur. Müasir dövrün, hətta gələcəyin İdrak savaşları - Koqnitiv müharibələr isə insan beyninin, zehnimizin gizli, gözlə görünməyən düşməni olan texnohipnozdur. Bu, Azərbaycanın bir zərb-məsəlində deyildiyi kimi "pambıqla baş kəsməyə" bənzəyir.

İdrak əməliyyatlarının fəsadlarının daxili aləmimizə, düşüncələrimizə sirayət etdiyini, bizləri təsiri altına saldığını anlayanda artıq gec olur. Bizi "tərəqqinin hipnozuna" salanlar məqsədinə nail olmayınca, bəzən hətta istədiyinə nail olandan sonra da hiss etmirik. İdrak savaşlarının uğur qazanmasını isə texnoloji tərəqqi, informasiya manipulyasiyaları təmin edir.

Zəka uğrunda savaşlar artıq boş xəyal deyil, müasir dünyanın reallığı, ən böyük çağırış və təhdidlərindəndir. İnsan beyinlərinə təsir etməyə hesablanmış xüsusi layihələr uşaqların və gənclərin tərbiyəsinə daha həssaslıqla yanaşmanı tələb edir. Psixoloji əməliyyatlar, insan zehni ilə manipulyasiyalar bir növ həkimin təyin etdiyi bağlı kapsul şəklində olan həblər kimidir. Biz ancaq qabığı, bağlamanı görürük, içində nə olduğundan bixəbərik, yaxud təlimatda nə yazılıbsa onu oxuyub, agah oluruq. Ancaq tədricən də olsa, gec-tez İdrak savaşlarının psixoloji mexanizmlərinin təsirini mütləq hiss edirik.

Xüsusi olaraq qeyd etmək istəyirik ki, yeni texnologiyaların inkişafı, kompüter proqramlarının ildən-ilə təkmilləşdirilməsi, süni intellektin və neyroşəbəkənin geniş tətbiqi zamanla insan idrakına, psixologiyasına təsir imkanlarının sərhədlərini təsəvvür edə bilməyəcəyimiz dərəcədə genişləndirir.

Hegemon güclərin, dünya miqyaslı siyasi aktorların dəstəyi ilə mətbuat və qlobal internet şəbəkəsi üzərindən aparılan, lakin ilk baxışdan ziyansız görünən təbliğat sayəsində maraq dairəsində olan xalqın milli-mənəvi dəyərləri silinir və uydurma dəyərlərlə əvəz olunur. Doğru xəbərlərlə yanaşı, sistematik olaraq o qədər təhrif edilmiş məlumatlar yayılır ki, zaman keçdikcə insanlar nəyin doğru, nəyin yalan olduğunu seçməkdə çətinlik çəkirlər. Müəyyən müddətdən sonra bu təsirlərə məruz qalan insanlar hətta doğru olan, rəsmi təsdiqini tapmış məlumata belə şübhə ilə yanaşır, oxuduğunun içində mütləq nə isə "şübhəli məqamlar" axtarırlar. Nəticədə təsir obyekti olaraq seçilmiş insan təbəqəsinin daxilində çaşqınlıq, inamsızlıq, etibarsızlıq dərin köklər salır. Zaman keçdikcə böyüməkdə olan nəslin zehni və psixologiyası ilə istənilən səviyyədə asan manipulyasiya edilməsinə zəmin yaranır.

Xəstəliklərdən və virus epidemiyalarından da ictimai-sosial psixoloji təsir metodu olaraq geniş istifadə edilir. Bunlara misal olaraq koronovirus pandemiyası dövründə həyata keçirilən informasiya hücum əməliyyatlarını göstərmək olar. Düşünürük ki, zaman keçdikcə bu metodların təsirini öz üzərində hiss edən insanlar nə demək istədiyimizi aydın anlayacaqlar.

Bununla bağlı diqqət çəkmək istədiyimiz daha bir məqam isə son vaxtlar geniş yayılmış tarixi mövzularda çəkilən filmləri göstərmək olar. Artıq bu tip filmlər faktlara söykənərək deyil, yaradıcı kollektivin xəyal məhsulu olaraq lentə alınır. Bir tarixi fakt və ya tarixi qəhrəman tamamilə fərqli rakurslarda təqdim edilir ki, artıq həmin qəhrəmanın, yaxud da tarixi hadisənin həqiqət olub-olmadığına şübhə yaranır. Beləliklə, insanlar arası-



na inamsızlıq toxumları səpələnir və nəticə olaraq xalq öz tarixi köklərindən qoparaq uzaqlaşır. Hesab edirik ki, bu məqama xüsusi diqqət yetirilməlidir.

Tarix boyu insanlar təklikdə, yaxud toplumlar halında maraqların təmin edilməsi naminə qanlı savaşlar aparıblar. Ənənəvi döyüş əməliyyatları zamanı tərəflər savaş meydanında daha çox bir-birini fiziki cəhətdən məhv etməklə qələbəyə nail olurdular. İnformasiya texnologiyalarının inkişafı sayəsində isə hazırda savaşların fərqli, heç bir etik-mənəvi qanunlara sığmayan, hüquqi normativlərə məhəl qoymayan yeni forma və metodları meydana gəlir. Sülh, təhlükəsizlik, insanların rifah halının daha da yaxşılaşmasına xidmət üçün yaradılmış yeniliklərin, eyni zamanda, hərb elmində də geniş tətbiqi gərəkli vasitə kimi ortaya çıxır. Bu gün zamanın tələbi və diktəsi olaraq böyük canfəşanlıqla təbliğ edilir, insanların zehninə yeridilir. İdrak savaşları üçün psixoloji əməliyyatlar hazırlayan mərkəzlər açıq şəkildə informasiya manipulyasiyaları vasitəsilə insanların beyinlərinə yeridir ki, qarşı tərəfi məğlub edərək maraqları təmin etmək üçün bütün metod və vasitələr keçərlidir, mənəviyyat ikinci plandadır, əsas odur nəticə olsun.

Bütün döyüş əməliyyatları kimi, İdrak savaşlarının da strateji və əməliyyat məqsədləri, müxtəlif mərhələləri, fərqli icra texnologiyaları mövcuddur. Müasir dövrdə bu növ döyüş əməliyyatları müharibə elan edilmədən həyata keçirilsə də, nəticələri dərhal özünü büruzə vermir. Zamanla geri dönüşü mümkün olmayan təsir göstərməklə, təsəvvürə sığmayan, dağıdıcı fəsadlara gətirib çıxarır.

Klassik müharibələrdə hər şey aydın idi - qarşıya qoyulan məqsədlərə nail olmaq, düşməni döyüş meydanında məğlubiyyətə uğratmaq. Koqnitiv müharibələr zamanı isə tam fərqli olaraq, insanları ayaqda tutan, düzgün qərarlar verməyə sövq edən əsasların məhv edilməsini, arzu olunan zəruri düşüncə və davranış tərzlərini təmin etmək üçün onların şüuruna, düşüncələrinə, zehninə təsir etmək üsulları "döyüş meydanına yeridilir".

Bildiyimiz kimi, insan resurslarını, ordunu, texnikanı və zədələnmiş infrastrukturu qısa zamanda bərpa etmək mümkündür. Lakin İdrak savaşları nəticəsində insan beyninin aldığı xəsarətləri, dünyagörüşünün mənfi istiqamətdə təkamülünü geri qaytarmaq, bərpa etmək əsla mümkün deyil. Ən faciəli hal da odur ki, bu savaşların qurbanları zaman keçdikcə artıq özlərini tam haqlı hesab edir və düşdükləri girdabdan çıxmaq, ziyanlı yoldan dönmək istəmirlər, yaxud da bacarmırlar, bu da bədii filmlər, seriallar, əyləncəli proqramlar, "fantastik" imkanlar vəd edən mərc yarışları, kompüter oyunları, cizgi filmləri vasitəsilə beyinlərə yeridilən sublematik mesajların fəsadlarıdır. Bu formada icra edilən psixoloji əməliyyatların kütləviliyi rəqib seçilən dövlətin daxildən darmadağın edilməsinə, insanların milli-mənəvi dəyərlərinin və dünyagörüşünün zərərli ünsürlərlə əvəz edilməsinə, cəmiyyətdə etirazların yüksəlməsinə, xalqların düşmən "cəbhələrə" parçalanmasına və mísilsiz çaşqınlıq yaradılmasına imkan verir. Belə əməliyyatları planlaşdıranlar başqasıdırsa, yadlardırsa, döyüş meydanında eyni toplumun insanları düşmən olaraq özü ilə savaşmaq məcburiyyətində qalacaq.

Ustalıqla təşkil edilmiş belə əməliyyatlar sayəsində rəqib ölkənin daxilinə ordu qüvvələri yeritmədən, xüsusi təyinatlı əməliyyatlar planlaşdırılmadan, sadəcə, ölkənin daxilindəki müəyyən narazı, eləcə də manipulyasiyaya asan uğradıla bilən qüvvələri istiqamətləndirməklə niyyətə çatmaq və qələbə əldə etmək mümkündür. Hətta "yumşaq güc tətbiqi" adlandırılan psixoloji əməliyyatlar sayəsində maraq dairəsində olan sabitlik hökm sürən istənilən ölkədə belə qısa müddət ərzində narazı, etirazçı, müxalif təbəqənin yaradılması və istənilən hərəkətlərə təhrik edilməsi də mümkündür. Buna son bir neçə il ərzində koqnitiv müharibə əməliyyatları, psixoloji əməliyyatlar, hibrid müharibələr sayəsində mümkün olmuş "Ərəb baharı" və uğursuzluqla nəticələnən "Narıncı inqilab" kimi dünyada baş verən bəzi silahlı münaqişələri misal göstərmək yetərlidir.

Qarşıdurmanı düşmənin simvolik meydanına, yəni, əhalinin beyninə, qəlbinə köçürməklə insanların müqavimət iradəsini qırmaq, çaxnaşma salmaq və dünyanın dəyərlər mənzərəsini məqsədlərə uyğun yenidən formalaşdırmaq - müasir xüsusi əməliyyat mərkəzlərinin əsas fəaliyyət istiqamətlərindən bəziləri, ən sadələri məhz bu sadaladıqlarımızdır.

Ortamüddətli perspektivdə bu tip savaşların planı ölkə vətəndaşlarının davranış normalarına təsir etməklə, hakimiyyətə inamı sarsıtmaqla, cəmiyyəti parçalamaqla, əhali arasında çaşqınlıq yaratmaqla qısa müddət ərzində qarşıya qoyulmuş hədlərə çatmağı, məqsədlərə nail olmağı nəzərdə tutur. Bunun üçün informasiya və psixoemosional komponentlərin istifadəsi biliklərin, faktların və məlumatların məzmununun dəyişdirilməsini nəzərdə tutur. Dezinformasiya və anlayışların dəyişdirilməsinin əsas istiqamətləri və vasitələri xəbərlərin, analitik-sosioloji məlumatların, ali təhsil müəssisələrində, məktəblərdə təlim proqramlarının və gənclərin müstəqil həyatda maraq dairəsinin daim nəzarətdə saxlanmasını özündə ehtiva edir. Məhz bu amillər nəzərə alınaraq əməliyyat planları hazırlanır, psixoemosional komponentlər seçilir. Tətbiq edilən həmin komponentlərin təsirli olması üçün şüurun, əhvali-ruhiyyənin və duyğuların manipulyasiyasından geniş istifadə edilir.

Düzdür, tarixdə baş vermiş, klassik müharibələr zamanı da düşmənə psixoloji təsir etmək üçün müəyyən addımlar atılıb. Lakin bütün bu vasitələr əsasən qısa dövr və döyüşün getdiyi zaman çərçivəsində icra edilib. "İdrak savaşı" əməliyyatları isə uzunmüddətli perspektivlər nəzərdə tutularaq həyata keçirilməklə böyük bir zaman kəsiyini, hətta böyüməkdə olan bir nəsli belə əhatə edə bilir. Psixoloji əməliyyat anlayışları, onun icra mexanizmi və vasitələri əsaslı şəkildə XX əsrdə meydana sürülüb və geniş tətbiq edilməyə başlanıb. Müxtəlif nəşrlər, çap məhsulları, bədii və cizgi filmləri, rəsm əsərləri, komikslər, ədəbi-bədii əsərlərdən bu məqsədlər üçün son 100 il ərzində geniş istifadə olunurdu.

İdrak savaşları dövləti və cəmiyyəti ayaqda tutan insanların beynini, zehnini zəhərləyən gizli düşmənidir. Hesab edirik ki, bu istiqamətdə daha böyük işlər görülməli, daha qəti addımlar atılmalıdır.

Koqnitiv müharibələrdən qorunmanın ən səmərəli üsulu milli-mənəvi dəyərləri özündə ehtiva edən milli koqnitiv müdafiə düşüncə tərzinin formalaşdırılmasıdır. Bu məqsədlə uzun illərə, eləcə də ortamüddətli perspektivlərə hesablanmış islahatlar həyata keçirilməli, insanlarımızın yad ünsürlərdən qorunması naminə daha böyük və səmərəli layihələr icra olunmalıdır.

## **Polkovnik:** Qərbin Ermənistanı sürətlə silahlandırması regional sülh üçün böyük təhdiddir

*Fransa və eləcə də Avropa İttifaqının Sülh Fondunun Ermənistanı sürətlə silahlandırması regional sülh üçün böyük təhdiddir və Qərbin məkrli məqsədlərindən xəbər verir.*

AZƏRTAC xəbər verir ki, bunu Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri polkovnik Cəlil Xəlilov deyib.

Polkovnik qeyd edib ki, Qərbin Ermənistana silah yardımı İrəvanı sülhdən uzaqlaşdıran ən mühüm amildir: "Qərbin müxtəlif dairələri Ermənistanı silahlandırmaqla Cənubi Qafqazdakı sülh prosesinə mane olur, İrəvanı sülhdən çəkindirirlər. Onlar bununla Ermənistandakı revanşist qüvvələri yeni qarşıdurmalara təhrik edirlər ki, bu da region üçün ciddi təhdiddir.

Prezident İlham Əliyev yerli televiziya kanallarına verdiyi müsahibədə Qərbin həmin siyasətini tənqid etdi, bunun doğuracağı fəsadlara diqqət çəkdi. Jurnalistlərin suallarına cavab verərkən dövlət başçısı qeyd etdi ki, Qərb Ermənistanı silahlandırmaqdan əl çəkməli, sülhə əngəl törətməməlidir. Qərb də, İrəvan da unutmamalıdır ki, yeni bir gərginlik Ermənistanın özü üçün fəlakət demək olacaq. Azərbaycan bununla bağlı bütün maraqlı tərəflərə dəfələrlə xəbərdarlıq edib, Ermənistanın silahlandırılmasının mümkün fəsadları haqqında beynəlxalq birliyi məlumatlandırıb. Buna görə də regionda baş verə biləcək istənilən gərginliyə görə məsuliyyət Ermənistan və onun havadarlarının üzərinə düşəcək".

O, Azərbaycanın heç vaxt erməni faşizminin yenidən dirçəldilməsinə imkan verməyəcəyini bildirib: "Azərbaycan 44 günlük Vətən müharibəsində erməni faşizminə sarsıdıcı zərbə vuraraq təcavüzkarların uzun illər işğal altında saxladığı torpaqları azad etdi. Lakin bu gün biz görürük ki, bəzi qüvvələr erməni faşizmini yenidən dirçəltməyə, ona rəvac verməyə çalışır. Ancaq gərək onlar unutmasınlar ki, Azərbaycan heç vaxt buna yol verməyəcək. Faşizmin bütün təzahürləri kimi erməni təcavüzkarlığı da məhvə məhkumdur və Azərbaycan onun dirçəlməsinin qarşısını almaq üçün bütün gərəkli addımları atacaq".

*Hərbi təhsil*

# Ordumuz üçün mütəxəssislər yetişdirən təhsil ocağı: Naxçıvan Hərbi Kolleci

*Sürətlə dəyişən zaman, günbəgün müasirləşən texnologiyalar, tətbiq olunan yeniliklər cəmiyyət həyatının bütün sahələrinin bu inkişafla ayaqlaşmasını zəruri edir. Xüsusilə təhsil dövlətin prioritet sahələrindən olduğu üçün qabaqcıl təcrübələrdən bəhrələnmək vacib amil kimi önə çıxır. Bəzən tarixi gedişat əsasında qazanılan təcrübə də zəruri islahatların qısa zamanda aparılmasını şərtləndirir.*





Ölkədə hərbi təhsil sisteminin əsası Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və səyi ilə 70-ci illərdə qoyulub. Azərbaycanın gələcəyinə hesablanmış bu mühüm addım illər sonra Birinci Qarabağ müharibəsində özünü göstərdi. Müstəqilliyinə yenicə qovuşmuş ölkədə aparılan ordu quruculuğunun kadr potensialının əsasını həmin dövrdə təhsil almış zabitlər təşkil etdilər. Peşəkar ordu quruculuğu ağır proses olduğundan zamanı qabaqlayan tarixi qərarlar qəbul edildi, hərbi təhsil sisteminə növbəti baxış, dəyişikliklər, bu istiqamətdə görülən mühüm işlər həm də yeniliklərlə müşayiət olundu. Belə ki, Naxçıvan tarixində ilk olaraq hərbi təhsil ocağı yaradıldı. 1998-ci ildən fəaliyyətə başlayan lisey ətrafına yüzlərlə gənci yığa bildi. Hansı ki, o gənclər Vətən müharibəsində, antiterror əməliyyatında öz bilik və bacarıqlarını şücaətləri ilə ortaya qoydular. Torpaqlarımız işğaldan azad olundu, ərazi bütövlüyümüz təmin edildi. 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması da bu baxımdan təsadüfi deyil. Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması, Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qazanılan qələbənin 5-ci ildönümü kimi mühüm tarixi proseslər 2025-ci ili əlamətdar il kimi önə çıxarır.

Ərazi bütövlüyü bizim konstitusion hüququmuzdur və bu hüququn qazanılmasına töhfə verən zəfərimiz, dövlət başçısının qətiyyəti, qəbul etdiyi mühüm qərarlar hərbi təhsil sisteminə yenidən baxışı şərtləndirmişdir. "Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli fərmanına əsasən Bakı, Gəncə və Naxçıvanda Milli Müdafiə Universitetinin tabeliyində hərbi kolleclər yaradıldı.

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecindəyik. "Xudayar təsnifi"nin sədaları altında tədris korpusuna daxil oluruq. Bizi bölmə rəisi mayor Elvin Qurbani qarşılayır. Öyrənirik ki, kollecdə böyük tənəffüslərdə vətənpərvərlik mahnıları səsləndirilir. Çox gözəl. Zamanın dəyişdirə bilmədiyi tək qüvvə də məhz belə vətənpərvərlik duyğuları olub. Bu duyğular müqəddəs hissə çevrilərək yüzlərlə gəncin həyat yoluna işıq salıb və onlar hərb peşəsinə könül veriblər, Vətən sevgisini bütün hisslərdən üstün tutublar və nəhayət, bu yolda şəhidlik zirvəsinə ucalaraq qürur yerimizə, örnək göstərə biləcəyimiz igidlərə çevriliblər.

44 günlük Vətən müharibəsi bizə həm də çox yaxşı nümunələr sərgilədi. Ən əsası da xalq-ordu birliyinin bariz təcəssümünü dünyaya göstərə bildik. Həmsöhbətimiz, bizi kolleclə tanış edən mayor Elvin Qurbani deyir ki, ilbəil, xüsusən də Vətən müharibəsindən sonra gənclərin hərb peşəsinə marağı ikiqat artıb. Valideynlər də onların bu peşəyə sevgisini dəstəkləyirlər.

2024-2025-ci tədris ilindən fəaliyyətə başlayan Naxçıvan Hərbi Kolleci müxtəlif ixtisaslar üzrə orta ixtisas təhsili və əlavə təhsil proqramlarını həyata keçirən xüsusi təyinatlı təhsil müəssisəsidir. Kollecə qəbul "Hərbi vəzifə və hərbi xidmət haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun həyata keçirilir. Kollecdə orta ixtisas təhsili pilləsinə tam orta təhsili olan şəxslər, zabit hərbi rütbəsi olmayan hərbi qulluqçular və hərbi vəzifəlilər qəbul edilirlər. İki il müddətində əyani formada təhsil alan kursantlar ödənişsiz yataqxana və gündə 3 dəfə yeməklə təmin olunurlar. Həmçinin onlar üçün müəyyən məbləğdə birdəfəlik və təhsil müddətində aylıq ödənişlər təsis edilib. Məqsəd Azərbaycan Ordusunun peşəkar kadrlarla təminatını gücləndirmək, orta ixtisas təhsilli subbakalavr peşə-ixtisas dərəcəli mütəxəssislər hazırlamaq və əlavə təhsil üzrə kadr hazırlığını həyata keçirməkdir.

4 hektar ərazidə yerləşən təhsil müəssisəsi 7 binadan və yardımçı qurğulardan ibarətdir. Ən son texnologiyalarla komplektləşdirilən kollecdə informasiya texnologiyalarının, xarici dillərin tədrisinə xüsusi önəm verilir. Zəngin kitabxana fondu, müasir trenajorlarla təchiz olunmuş idman zalı, futbol meydançası, idman qurğuları, mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün klub-konfrans zalı, yataqxana, sosial-xidmət mərkəzi kursantların fiziki, mənəvi-psixoloji hazırlıqlarının, həmçinin istirahətinin təşkilinə imkanlar açır. İkiillik təhsil müddətini başa vuran kursantlar gizir kimi Azərbaycan Ordusunun hərbi hissə və bölmələrində xidmətə başlayacaqlar.

"Vətən müharibəsi onu göstərdi ki, kiçik komandir heyəti tərəfindən döyüşlərdə bölmələrin idarə edilməsi daha məqsədəuyğundur. Odur ki, peşəkar, təhsilli, mənəvi-psixoloji və fiziki cəhətdən hazırlıqlı kadrların yetişdirilməsi günün tələbidir. Hərbi kollecin yaradılması bu baxımdan böyük əhəmiyyət daşıyır və bu təhsil ocağının yetişdirdiyi məzunlar, təbii ki, gələcəkdə fəaliyyətləri, xidmətləri ilə öz töhfələrini verəcəklər", - deyə kollecin zabiti mayor Kənan Şirinov söhbətə qoşuldu. Kənan Şirinov Xocavənd, Daşaltı, Şuşa istiqamətlərində gedən döyüşlərdə iştirak edib. "Döyüşdə fərqlənməyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub. Bildirdiki, nəzəri biliklərlə yanaşı, döyüşdə qazandıqları praktiki bilgiləri bölüşmək kursantlar üçün də maraq doğurur. "Kollecdə yaradılan şərait nəzəri, praktiki və laboratoriya məşğələlərinin, yoxlama və kurs işlərinin lazımi səviyyədə aparılmasına imkan verir. Azərbaycançılıq ideyalarına, geniş dünyagörüşə malik, müasir təfəkkürlü, silah və hərbi texnikanı mükəmməl bilən orta ixtisas təhsilli mütəxəssislərin hazırlanması bizim əsas məqsədimizdir".

Bu məqsəd ətrafında birləşən kursantların bir neçəsi ilə həmsöhbət olduq. Bildirək ki, kollecdə ölkəmizin müxtəlif bölgələrindən olan gənclər də təhsil alırlar. Kursant Nihad İbrahimov Beyləqan şəhərində doğulub. Atası baş gizir Elçin İbrahimov bir müddət Naxçıvanda xidmət edib. Nihad da atasının yolunu davam etdirmək üçün təhsilini Naxçıvanda almaq qərarına gəlib. Sərbəst güləş və qaydasız döyüş növü ilə məşğul olan Nihad bir sıra beynəlxalq yarışların iştirakçısı olub. 3 qat Azərbaycan çempionu, göy kəmər ustasıdır. Milli Qəhrəman Mübariz İbrahimov onun həyat idealıdır.



Kursant Havadar Dilavərli Bakı şəhərindəndir. Məqsədi peşəkar hərbçi kimi yetişməkdir. "Kollecdə nizam-intizam və tədris şəraiti yüksək səviyyədədir. Bu da imkan verir ki, biz hərbi biliklərə dərindən yiyələnək. Bura gələndən qısa müddət ərzində kompüter biliklərimi təkmilləşdirmişəm", - kursant dedi.

Fərid Abdullayev Şərur rayonunun Tumaslı kəndindəndir. Atası Amur Abdullayev kimi, o da ömrünü hərbə bağlamaq qərarı ilə yolunu kollecdən salıb. Həmkəndlisi Ruzi Həsənov da Fəridlə bərabər bu yolu seçib. Hər ikisi bu yolda qətiyyətlə addımlayır.

Xəzri Vəliyev Şahbuz rayonunun Keçili kəndindəndir. Keçili kəndi Vətən müharibəsində Mərhəmət Həmzəyev kimi cəsur oğul şəhid verib. Xəzri Vəliyev deyir ki, burada yaxşı dostlar qazanmışam. Məqsədimin astanasındayam və çox qürurluyam.

İsmayıl Quliyev Babək rayonunun Cəhri qəsəbəsindəndir. Uşaqlıqdan qəhrəmanların döyüş yolunu izləyən İsmayıl seçimini edib: qalib Azərbaycan Ordusunda xidmət etmək. Kollecin fəaliyyətə başlaması onu arzusuna bir addım daha yaxınlaşdırıb.

Vüsal Qənbərov Milli Qəhrəman Kərim Kərimov adına Qarahəsənli kənd tam orta məktəbini bitirib. Şərur rayonunun bu kiçik yaşayış məntəqəsi Vətən torpaqlarının azadlığı uğrunda gedən döyüşlərdə 4 şəhid verib. Kəndin yeniyetmələri hər zaman qəhrəmanları ilə qürur duyublar, onlardan bu yolu davam etdirənlər də az olmayıb. Vüsal 9-cu sinfi bitirəndən sonra Heydər Əliyev adına Hərbi Liseyə sənəd verib, ancaq qəbul ola bilməyib. Kollecin fəaliyyətə başlaması Vüsala yenidən ümid verib və o, artıq təhsilini burada davam etdirir.

Kollecin zabit, müəllim və kursantları ilə apardığımız söhbətlər, müşahidə etdiklərimiz və aldığımız təəssürat onu deməyə əsas verir ki, bu təhsil müəssisəsi qısa zamanda Azərbaycan Ordusunun döyüş hazırlığının və ümumilikdə dövlətin müdafiə qabiliyyətinin artırılması istiqamətində hərbi qulluqçuların hazırlanması işinə yüksək səviyyədə müvəffəq olacaq, ordu sıralarının peşəkar kadrlarla təminatına öz layiqli töhfəsini verəcəkdir.




**Ruhiyyə RƏSULOVA**
**"Şərq qapısı" qəzetinin məsul katibi**

*Vətən Müharibəsi Qəhrəmanlarımız*

# Vətən üçün şəhadət şərbətini içən qəhrəman

*Bu gün Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü, torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin ömür və döyüş yolu gənclərimizə örnəkdir. Hər bir Azərbaycan vətəndaşı öz qəhrəmanlarını tanımalı, onların keçdiyi həyat yolundan çox şeyləri öyrənməlidir.*

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ölkəmizə qarşı törədilən cinayətlərə, xüsusilə də erməni təcavüzü və terrorizminə qarşı xalqımız səfərbər olaraq Vətən naminə düşmənə qarşı ölüm-dirim mübarizəsinə qalxdı. Bu mübarizədə minlərlə igid oğul və qızlarımız şəhid oldu. Doğma Vətənimizin müdafiəsi uğrunda şirin canlarından keçərək şəhidlik zirvəsinə ucalmaq isə ən böyük şərəf və qürurdur. Onların xatirəsini yaşatmaq, gənclərə nümunə göstərmək isə hər bir kəsin vətəndaşlıq borcudur.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin təxribatlarına qarşı həyata keçirilən əks-hücum əməliyyatında hərbi qulluqçularımız şücaət, vətənpərvərlik, qəhrəmanlıq və fədakarlıq göstərərək adlarını hərb tariximizin qızıl səhifələrinə yazdılar. Onlardan biri də Vətən Müharibəsi Qəhrəmanı Elyar Arif oğlu Vəliyevdir.

Qəhrəman şəhidimiz 1991-ci il oktyabrın 17-də Qobustan rayonunun Sədəfli kəndində dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanıb. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra o da hərbçi olmaq, Vətənimizin keşiyində dayanmaq qərarına gəlib. Müxtəlif təlim və kurslarda iştirak edən Elyar öz peşəkarlığını durmadan artırıb. Çünki hamı kimi, o da Vətən torpaqlarının azad olunacağı günü, Ali Baş Komandanın döyüş əmrini gözləyirdi.



Nəhayət, həmin gün yetişdi. Aprel döyüşlərində olduğu kimi, Vətən müharibəsi başlayanda da qəhrəmanımız erməni işğalçılarına qarşı döyüşlərə atılıb. Xüsusi Təyinatlı Qüvvələrin tərkibində müxtəlif istiqamətlərdə, o cümlədən Füzulinin, Cəbrayılın, Xocavəndin azad olunması uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək qarşıya qoyulmuş tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirib. Oktyabrın 19-da şiddətli döyüşlər zamanı şəhid olub. O, oktyabrın 24-də doğulub boya-başa çatdığı Qobustan rayonunun Sədəfli kəndində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində göstərdiyi xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi igidliklərə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən Elyar Arif oğlu Vəliyevə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib. Azərbaycan Respublikası Prezidentinin digər müvafiq sərəncamları ilə o, həmçinin "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə də təltif edilib.

Bu gün Elyar kimi son damla qanınadək qəhrəmancasına vuruşaraq, torpaqlarımızın düşmən tapdağından azad edilməsinə nail olan igid oğullarımızın ruhu şaddır, çünki onların uğrunda şəhid olduğu torpaqlarda üçrəngli şanlı Azərbaycan bayrağı qürurla dalğalanır. Qədirbilən xalqımız isə bizlərə Böyük Qələbəni bəxş edən igidlərimizlə qürur duyur, onların xatirəsini daim əziz tutur.

*Bu Vətən, bu torpaq*
*mənimdi deyib*
*Üstündə vüqarla*
*gəzdi şəhidlər.*
*Əyninə qanından*
*bir köynək geyib*
*Düşmənin yolunu*
*kəsdi şəhidlər.*

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**




*Yeni nəşrlər*

# "Vətən savaşında Azərbaycanın Zəfəri" kitabı türk dilində çapdan çıxıb

"Vətən savaşında Azərbaycanın Zəfəri" kitabı türk dilində nəşr olunub.

AZƏRTAC xəbər verir ki, Milli Müdafiə Universitetinin Hərbi Elmi-Tədqiqat İnstitutunda hazırlanan kitab Azərbaycanda Konstitusiyanın qəbul edilməsinin 30-cu və 44 günlük Vətən müharibəsində Qələbəmizin 5-ci ildönümlərinə həsr edilib.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan 1104 səhifəlik əsərin müəllifi Hərbi Elmi-Tədqiqat İnstitutunun Humanitar elmlər şöbəsinin professoru, "Dərbənd" Xeyriyyə İctimai Birliyinin sədri, ehtiyatda olan 1-ci dərəcəli kapitan, tarix elmləri doktoru, professor Nurulla Əliyevdir.

Kitabda Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişənin gedişi və kəskinləşməsi zamanı baş verən əsas geosiyasi proseslərin və hadisələrin izahı verilib, həmçinin beynəlxalq birliyin, Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişəyə cəlb olunan tərəflərin fəaliyyətinin qərəzsiz təhlilinə böyük diqqət yetirilib.

Nəşrdə, eyni zamanda, Birinci və İkinci Qarabağ müharibələrində hərbi-siyasi hadisələrin və döyüş əməliyyatlarının xüsusiyyətləri xronoloji ardıcıllıqla əks olunub, o cümlədən Vətən müharibəsində Qələbəni təmin edən Silahlı Qüvvələrin hərbi-strateji məharəti və tətbiq edilən taktikanın inkişafı, mərhələli və sabit təkamülü göstərilib.

Kitabda xüsusi olaraq vurğulanıb ki, Vətən müharibəsi dövründə baş verən hərbi-siyasi hadisələr bu gün faktiki olaraq Azərbaycan və dünya hərb sənəti tarixində yeni səhifə açıb. Müasir müharibələr və münaqişələr tarixində dronların və "gəzən sursat"ların (kamikadze dronları) belə irimiqyaslı tətbiqinin analoqu yoxdur. Qarabağdakı Vətən müharibəsi bir çox hərbi və siyasi parametrlərinə görə "sabahkı günün ilk müharibəsi" hesab edilməlidir.

Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişənin səbəb və nəticələri ilə bağlı bütün problemlər kompleksinin hərtərəfli və dərindən tədqiqi, onun tənzimlənməsinin siyasi və hərbi-güc metodlarının geosiyasi əhəmiyyətinin üzə çıxarılması kitab üzərində iş zamanı müəllif üçün müəyyənedici amillər olub. Münaqişəyə cəlb olunan tərəflərin, beynəlxalq təşkilatların və bütövlükdə dünya birliyinin reaksiyası, Vətən müharibəsinin hərbi-siyasi nəticələri hələ uzun müddət və böyük ölçüdə Cənubi Qafqazda cərəyan edən geosiyasi proseslərin gedişini müəyyənləşdirəcək.

Kitabda İkinci Qarabağ müharibəsi zamanı döyüş bölgələrində Azərbaycan Ordusunun apardığı əməliyyatlar xəritələrdə əksini tapıb. Bu baxımdan kitab Milli Müdafiə Universitetinin professor-müəllim heyəti və dinləyiciləri, hərbi nəzəriyyəçilər, beynəlxalq münasibətlər, beynəlxalq humanitar və hərbi hüquq sahələrində ixtisaslaşan mütəxəssislər üçün dəyərli mənbədir.

# Müdafiə Nazirliyinin minifutbol komandası Ulu Öndərin xatirəsinə həsr olunmuş turnirdə növbəti oyununu keçirib





*Müdafiə Nazirliyinin komandası Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş dövlət qurumları arasında III minifutbol turnirində növbəti oyununu keçirib.*

"C" qrupunda mübarizə aparan komandamız Elm və Təhsil Nazirliyi komandası ilə qarşılaşıb. Gərgin və əzmkar mübarizə şəraitində keçən görüşün sonunda komandamız 3-2 hesabı ilə qalib gələrək xalını 9-a çatdırıb.

Gənclər və İdman Nazirliyinin Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və Azərbaycan Minifutbol Federasiyası ilə birgə təşkil etdiyi turnirdə Müdafiə Nazirliyinin minifutbol komandası ümumilikdə 3 turun nəticələrinə görə maksimum xal toplayıb.

**"Azərbaycan Ordusu"**

# Ordu İdman Klubu Basketbol Liqasında növbəti qələbəsini qazanıb

Yanvarın 11-də Sərhədçi idman olimpiya mərkəzində davam edən yarışlar çərçivəsində Ordu İdman Klubunun yığması "Quba" komandası ilə görüşüb.

Qarşılaşma 7 xal fərqlə "Ordu" komandasının üstünlüyü ilə sona çatıb.

Qarşılaşmada "Ordu" komandası 81:74 xal hesabı ilə qələbə qazanıb.

**"Azərbaycan Ordusu"**









# Müdafiə Nazirliyi müddətdən artıq həqiqi hərbi xidmət keçmək istəyənlərin qəbulunu elan edir

Azərbaycan Ordusunda radioelektronika sahəsi üzrə müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunda olan vətəndaşların qəbuluna başlanılır.

Ən azı ümumi orta təhsili, qanunla müəyyənləşdirilmiş müddətli həqiqi hərbi xidmətini başa vurmuş, 30 yaşınadək hərbi vəzifəlilər **13 yanvar-15 fevral 2025-ci il tarixlərdə** Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən qəbul komissiyasına müraciət edə bilərlər.

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət etmiş şəxslər hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədilə qəbul komissiyası tərəfindən Müdafiə Nazirliyinin müvafiq tibb müəssisələrinə göndərilir. Hərbi Həkim Komissiyasının qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılırlar.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq, liderlik və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə verməş namizədlər kursa qəbul edilir.

Kursu müvəffəqiyyətlə başa vuran şəxslərlə bağlaşma imzalanır və onlar ixtisaslarına uyğun müvafiq vəzifələrə təyin olunurlar.

**Namizədlər qəbul komissiyasına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə, çap edilmiş 2 nüsxədə);
- təhsil haqqında sənədin surəti (1 nüsxədə);
- doğum haqqında şəhadətnamənin surəti (1 nüsxədə);
- şəxsiyyət vəsiqəsinin surəti (1 nüsxədə);
- nikah haqqında şəhadətnamənin surəti (evli olduqda, 1 nüsxədə);
- həyat yoldaşının və uşaqların şəxsiyyət vəsiqələrinin surəti (şəxsiyyət vəsiqələri olmadıqda doğum haqqında şəhadətnamələrin surəti, 1 nüsxədə);
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4,5x6 sm ölçüdə);
- qeydiyyatda olduğu poliklinikadan (dəri-zöhrəvi, vərəm, ruhi-əsəb, narkoloji və son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi barədə) arayış;
- hərbi biletin bütün vərəqlərinin notarial qaydada təsdiq olunmuş surəti (1 nüsxədə).

**Sənədlərin qəbulu həyata keçiriləcək ünvan**: Bakı şəhəri, Yasamal rayonu, Eldar Ağayev küçəsi 126 (Bakı Hərbi Məhkəməsinin yanı).

**Müraciət etmə vaxtı**: Qeyd olunmuş tarixlərdə, saat 09:00-dan 17:00-dək (bazar günləri istisna olmaqla).

**Qeyd**:

1. Müddətdən artıq həqiqi hərbi xidmətdən "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 156-cı maddəsinin "e" bəndinə (xidməti uyğunsuzluğa görə) müvafiq olaraq ehtiyata buraxılmış hərbi qulluqçuların və məhkumluğunun ödənilməsindən asılı olmayaraq məhkum olunmuş hərbi vəzifəlilərin kursa qəbul üçün müraciət etmələri xahiş olunur.

2. "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"nu müvəffəqiyyətlə bitirmiş şəxslərin təyinatı Azərbaycan Ordusunun ehtiyaclarına uyğun vakant vəzifələrin komplektləşdirilməsi üzrə həyata keçiriləcək.

# Xəbərlər: hadisələr, faktlar

## NATO 10 mindən çox hərbçinin iştirakı ilə təlim keçirəcək



NATO yanvarın 13-dən fevralın 26-dək "Steadfast Dart" təlimi keçirəcək.

Bu barədə Alyans X sosial şəbəkəsində məlumat verib.

Rumıniya, Bolqarıstan və Yunanıstanda keçiriləcək təlimdə 10 mindən çox NATO əsgəri iştirak edəcək.

"Təlim NATO-nun istənilən vaxt ərzində potensial rəqibə qarşı çevik reaksiya vermək bacarığını və müdafiə qabiliyyətini nümayiş etdirəcək", - məlumatda qeyd olunub.

## Zelenskidən KXDR sədrinə əsir götürülən əsgərlərlə bağlı təklif



Ukrayna döyüşlər zamanı Ukrayna Silahlı Qüvvələri tərəfindən əsir götürülən Şimali Koreya əsgərlərini Koreya Xalq Demokratik Respublikası Dövlət Şurasının sədri Kim Çen Ina təhvil verməyə hazırdır. Lakin hərbçilərin geri qayıtması üçün bir şərt var.

Bu barədə Ukrayna Prezidenti Volodimir Zelenski teleqram səhifəsində məlumat verib.

"Ukrayna əsirləri Kim Çen Ina verməyə hazırdır, o halda ki, KXDR sədri Rusiyada əsirlikdə olan ukraynalı hərbçilərin dəyişdirilməsinə nail olsun", - deyə Zelenski əlavə edib.

Ukrayna Prezidenti qeyd edib ki, Şimali Koreyadan əsir düşən ilk əsgərlərdən başqa digərlərinin də olacağı gözlənilir və bu, yalnız vaxt məsələsidir.

## Çexiya yeni təhlükəsizlik konsepsiyasına keçir



Çex Respublikasının Nazirlər Kabineti növbəti beş il üçün yeni Dövlət Təhlükəsizliyi Konsepsiyasını təsdiq edib.

Praqa Radiosu xəbər verir ki, təsdiq edilmiş strateji sənəd təhlükəsizlik sahəsində böhranlı vəziyyətlərin həllinə mühüm dəyişikliklər edir. Ölkənin Müdafiə Nazirliyinin yaydığı məlumata görə, konsepsiya müasir təhlükəsizlik təhdidlərini nəzərə almalı və bütün əhalini əhatə edəcək sistem yaratmalıdır.

Yeni konsepsiya daha geniş əhatə dairəsi təklif edir. Sənəd təkcə müəllimlərin deyil, həm də dövlət qulluqçularının, eləcə də əsas şirkətlərin işçilərinin təliminin vacibliyini vurğulayır. Qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq və strateji kommunikasiya mühüm dəstək olacaq.

## Çadda Fransa erası bitir



Fransa Çadda yerləşən hərbi kontingentini çıxarır. Proses mərhələli şəkildə həyata keçirilir və yanvarın 31-dək yekunlaşacağı planlaşdırılır.

Çadın "Al Wihda" saytı xəbər verir ki, yanvarın 11-də Fransa hərbi qüvvəsi Çadın şərqində yerləşən Abeşe şəhərindəki ikinci hərbi bazasını yerli hakimiyyətə təhvil verib.

Nigeriyanın "Meteor" xəbər saytı yazır ki, Çadın müdafiə naziri general İshaq Malva Camus bazanın təhvil verilməsini "vacib mərhələ" adlandırıb və Fransa qüvvələrinin Çaddan çıxarılması prosesinin yanvarın 31-dək yekunlaşmasının "labüd, geri dönüşü olmayan və yenidən müzakirə edilməz" məsələ olduğunu vurğulayıb.

Qeyd etmək lazımdır ki, Fransa qüvvələrinin Çadı tərk etməsi prosesi ötən ilin dekabr ayından başlayıb. Ötən ay ölkənin şimalındakı Faya bazası Çad hakimiyyətinə təhvil verilib.

**AZƏRTAC-ın materialları əsasında**

# Əlahiddə Ümumqoşun Ordunun tabeliyində olan hərbi hissələrdə vakant sürücü vəzifələrinə qəbul elan edilir

Əlahiddə Ümumqoşun Ordunun tabeliyində olan hərbi hissələrdə sürücü vəzifələrində xidmət etmək (işləmək) üçün C, D və E kateqoriyalı sürücülər tələb olunur.

50 yaşınadək olan mülki şəxslər, həqiqi hərbi xidmətdən ehtiyata buraxılmış müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları (uyğunsuzluqla ehtiyata buraxılanlar istisna olmaqla), həmçinin ehtiyatda olan hərbi vəzifəlilər Əlahiddə Ümumqoşun Ordunun Təlim və Tədris Mərkəzinə müraciət edə bilərlər.

**Tələb olunan sənədlər**:
- C, D və ya E kateqoriyalı sürücülük vəsiqəsi;
- şəxsiyyət vəsiqəsinin surəti;
- hərbi biletin surəti;
- tərcümeyi-hal;
- rəngli fotoşəkil (2 ədəd 3x4 və 2 ədəd 4.5x6 sm ölçüdə);
- qeydiyyatda olduğu poliklinikadan (dəri-zöhrəvi, vərəm, ruhi-əsəb, narkoloji xəstəliklərin olmaması barədə) arayış.

**Sənəd qəbulunun həyata keçiriləcəyi ünvan**: Naxçıvan Muxtar Respublikası Naxçıvan şəhəri, 1 nömrəli hərbi şəhərcik (Əlahiddə Ümumqoşun Ordunun Təlim və Tədris Mərkəzi).

**Müraciət etmə vaxtı**: həftəiçi (bazar və bayram günlərindən başqa) saat 09:00-dan 17:00-dək, şənbə günləri saat 09:00-dan 13:00-dək.

# İdman

## Azərbaycanın fiqurlu konkisürəni dünya çempionatına vəsiqə qazanıb



Azərbaycanın fiqurlu konkisürəni Nərgiz Süleymanova Bolqarıstanın Sofiya şəhərində keçirilən "Sofia Trophy" yarışında iştirak edib.

Qısa və sərbəst proqram üzrə mübarizə aparan idmançı 172.80 xal toplayıb və 23 iştirakçı arasında 5-ci yerin sahibi olub. Bununla da N.Süleymanova dünya çempionatına vəsiqə qazanıb.

## Azərbaycan atleti beynəlxalq turnirdə bürünc medal qazanıb



İspaniyanın Sabadel şəhərində təşkil olunan beynəlxalq yarışda Azərbaycanı təmsil edən atlet Nazim Babayev uğurlu çıxışla yadda qalıb.

Uzunluğa tullanma növündə mübarizə aparan idmançının nəticəsi 7,44 metr olub. Bu göstərici ilə N.Babayev turnirin bürünc medalını qazanıb.

## Azərbaycanın güləş millilləri ilin ilk təlim-məşq toplanışına başlayıblar



Güləş üzrə Azərbaycan milli komandaları təlim-məşq toplanışına start verib. Hər üç millimiz AGF-nin təlim-məşq bazasında hazırlıq keçir. Güləşçilər məşqçilərin nəzarəti altında həm fiziki, həm də taktiki-texniki çalışmaları yerinə yetirir.

Sərbəst güləş üzrə yığmanın bir qrupu yanvarın 19-da Dağıstana yollanacaq. Komanda əsas heyəti fevralın 1-dək Mahaçqalada təlim-məşq toplanışı keçəcək.

Yunan-Roma və qadın güləşi üzrə millilləri isə fevralın 5-9-da Xorvatiyada keçiriləcək ilin ilk reytinq turnirinədək məşqləri doğma məkanda davam etdirəcək. Hər iki seçmə "Zaqreb Open"dən sonra qarşıdakı mühüm yarışlara ölkə xaricində hazırlaşacaq.

**AZƏRTAC-ın materialları əsasında**

Məsul katib
mayor
Ceyhun CƏFƏRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

Növbətçi
kapitan
Fuad CƏFƏROV

Lisenziya № 361
Sifariş № 4
Nüsxə 3663